# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 67** **Bakı şəhəri, 1 mart 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 15 yanvar tarixli 7 nömrəli, "Bakı Dövlət Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 16 aprel tarixli 172 nömrəli, "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 13 may tarixli 219 nömrəli, "Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 22 avqust tarixli 365 nömrəli və "Azərbaycan Dillər Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 10 sentyabr tarixli 401 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 1399 nömrəli Fərmanının 4.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 151; 2020, № 4, maddələr 477, 489, № 11, maddə 1378) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 5.13-cü bəndinin birinci cümləsinə "yönəldilir" sözündən əvvəl ", habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 765; 2020, № 11, maddə 1378) ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetinin Nizamnaməsi"nin 5.13-cü bəndinin birinci cümləsinə "yönəldilir" sözündən əvvəl ", habelə Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 953; 2020, № 11, maddə 1378) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 5.13-cü bəndinin birinci cümlə-sinə "yönəldilir" sözündən əvvəl ", habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli 365 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1470; 2020, № 11, maddə 1378) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi"nin 5.13-cü bəndinin birinci cümləsinə "yönəldilir" sözündən əvvəl ", habelə Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna" sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 401 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2019, № 9, maddə 1555; 2020, № 11, maddə 1378) ilə təsdiq edilmiş "Azərbaycan Dillər Universitetinin Nizamnaməsi"nin 5.13-cü bəndinin birinci cümləsinə "yönəldilir" sözündən əvvəl ", habelə Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 4 mart.- S.6.